*Azərbaycan Universiteti Elmi*
*Şurasının 10.09.2019-cu il tarixli iclasının*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

# AZƏRBAYCAN UNİVERSİTETİ

# MAGİSTRANTLAR ÜÇÜN
# YADDAŞ KİTABÇASI

**Bakı - 2019**

## MAGİSTRANTLAR ÜÇÜN YADDAŞ KİTABÇASI

Yaddaş kitabçasında Azərbaycan Universitetində magistr hazırlığı, magistratura səviyyəsində təhsilin məzmunu və tədris prosesinin təşkilinə qoyulan tələblər, magistr ixtisaslaşma hazırlığı proqramlarının elmi-tədqiqat hissəsi üzrə bilik və bacarıqlara qoyulan tələblər izah edilir.

Magistrlik dissertasiyalarının*[1] mövzu seçimi və mahiyyəti, məqsədi, onun yazılış qaydaları, metodikası, tərtibi, müdafiə prosesi haqqında ətraflı məlumat verilir. Kitabçada magistrlik dissertasiyası elmi rəhbərinin vəzifələri və magistrant - elmi rəhbər münasibətləri şərh olunur. Yaddaş kitabçasında magistrantlar üçün elmi-tədqiqat və elmi-pedaqoji təcrübənin* məqsədi, təşkilati prinsipləri, strukturu və prosedur qaydalarının şərhi verilir, təcrübə keçənlərin vəzifələri və əsas fəaliyyət öhdəlikləri əks olunur. Kitabçada magistrantın fərdi tədris planı və planda nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar ətraflı məlumatlar verilir, elmi-tədqiqat və elmi-pedaqoji təcrübənin gündəliyinin və hesabatının yazılması qaydaları şərh edilir.

Yaddaş kitabçası magistrantlar, magistrlik dissertasiyasının elmi rəhbərləri, rəyçilər, məsləhətçilər və həmçinin özünün elmi yaradıcılıq diapazonunu genişləndirməк istəyində olan gənc tədqiqatçılar üçün nəzərdə tutulur.

## MÜNDƏRİCAT


1. Magistratura təhsili nədir?
2. Azərbaycan Universitetində magistr hazırlığı
3. Magistraturada tədris prosesinin strukturu
4. Magistrantın hüquq və vəzifələri
5. Azərbaycan Universitetində magistrantlar üçün mübadilə proqramları
6. Kredit sistemində tələbənin biliyinin qiymətləndirilməsi
7. Fərdi tədris planı (FTP)
8. İmtahan sessiyasının təşkili və keçirilməsi
9. Təqaüdlər necə müəyyənləşdirilir?
10. Magistrantların attestasiyası
11. Elmi-pedaqoji və elmi-tədqiqat təcrübəsi
12. Magistrantın təcrübə rəhbərinin vəzifələri
13. Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları


### 1. Magistratura təhsili nədir?

Magistratura təhsili peşəkar mütəxəssislərin yetişdirilməsində əhəmiyyətli və mütəşəkkil bir rol oynayaraq çoxpilləli ali təhsilin ayrılmaz və dinamik bir hissəsini təşkil edir. Magistr hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş magistr ixtisaslaşmalarının (proqramlarının) təsnifatına uyğun olaraq mütəxəssis hazırlığının həyata keçirilməsini təmin edir. Magistr (lat. magister – rəhbər, müəllim) – magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsidir. Avropanın “Bolonya prosesi”nə qoşulmuş ölkələri, o cümlədən Azərbaycan ümumi Avropa təhsil çərçivəsi yaratmaq məqsədilə təhsil sisteminə magistr təhsil pilləsini daxil etmişlər. Magistr təhsili iki il ərzində, peşə yönümündən asılı olaraq

---

[1] Qeyd edilən məsələ tədris planlarında göstərilmiş ixtisaslar üçün nəzərdə tutulur.

öncədən alınmış bakalavr təhsilini elmi cəhətdən dərinləşdirməyə və əlavə ixtisasa yiyələnməyə xidmət edə bilər. Adətən elmi tədqiqatlarla məşğul olmağı və ya ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlərlə məşğul olmağı planlaşdıran bakalavr məzunları magistraturada təhsillərini davam etdirirlər. Bundan əlavə magistr dərəcəsi doktoranturada təhsil üçün əsas şərt sayılır. Azərbaycanda magistr təhsilinin əsasları "Azərbaycan Respublikasının Təhsil Qanununda" ətraflı şərh edilmişdir.

## 2. Azərbaycan Universitetində magistr hazırlığı

Ali təhsilin əsas peşə təhsili proqramlarından biri üzrə təhsilini müvəffəqiyyətlə başa vurmuş və ali təhsil haqqında diplomu olan şəxslər uyğun ixtisas üzrə magistraturada təhsil almaq hüququna malikdirlər. Qeyd etmək lazımdır ki, magistratura səviyyəsində tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (Avropa ölkələrində tətbiq olunan AKTS - Avropa Kredit Transfer Sistemi) ilə həyata keçirilir. Magistratura-ali təhsilin ikinci səviyyəsinin tələblərinə uyğun olaraq, yüksəkixtisaslı, sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlığını təmin edən təhsil prosesidir. Magistratura səviyyəsində təhsilin məzmunu bir-biri ilə əlaqəli nəzəri təlimdən, elmi-tədqiqat işlərindən, pedaqoji və peşəkar hazırlıqdan ibarətdir. Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı humanitar, ixtisas və ixtisaslaşma fənlərinin mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formada öyrənilməsi ilə təmin olunur. Magistrantın elmi-tədqiqat fəaliyyəti hər semestr üçün nəzərdə tutulmuş elmi-tədqiqat işlərinin yerinə yetirilməsindən, elmi tədqiqat və elmi-pedaqoji təcrübələrdən və magistrlik dissertasiyasının hazırlanmasından ibarətdir. Magistratura üzrə aparılan elmi tədqiqat işləri axtarış və tətbiqi xarakterli işlər olmalıdır.

## 3. Magistraturada tədris prosesinin strukturu

Magistratura təhsili 2 tədris ilindən ibarətdir. Tədris ili, bir qayda olaraq, iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq, yay semestri də təşkil oluna bilər. Ali təhsilin hər iki səviyyəsində (bakalavr/magistratura) əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən, 5 həftə imtahan sessiyası) ibarətdir. Bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadan kənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistr dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir.

Əgər hər hansı bir səbəbdən (ailə vəziyyəti, xəstəlik, hərbi xidmət və s.) magistranta möhlət verilirsə, bu möhlət müddəti ümumi təhsil müddətinə daxil edilmir.

Magistraturada təhsilin normativ müddəti 2 il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir.

Akademik borcu olanlar üçün ödənişli əsaslarla, hər semestrdə cəmi 10 kreditdən çox olmamaq şərtilə fənn (fənlər) də seçməyə icazə verilir. Bu halda 30-dan artıq kreditə görə təhsil haqqının ödənilməsi müfaviq qaydalara uyğun olaraq həyata keçirilir.

## 4. Magistrantın hüquq və vəzifələri

Magistrantlar ali təhsil müəssisəsində kredit sisteminin tətbiqi ilə bağlı qaydalarla və tədris prosesinin təşkili barədə normativ sənədlərlə tanış olmaq hüququna malikdirlər. Magistrantlar fərdi tədris planlarını müəyyənləşdirərək Nazirlər Kabinetinin 348 saylı 24 dekabr 2013-cü il qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na riayət etməlidirlər. Təhsil zamanı magistrant fərdi tədris planına ciddi riayət etməklə tədris olunan fənləri mənimsəməyə borcludur. Magistrant ali təhsil müəssisəsinin daxili intizam qaydalarını pozduğu halda ona müvafiq qaydada intizam tənbehi tədbirləri tətbiq edilir. Magistrant bir fənni ödənişli əsaslarla istənilən qədər seçə və dinləyə bilər.

***Magistrantların əsas vəzifələri aşağıdakılardan ibarətdir:***

-Seçdikləri hazırlıq istiqaməti və ya ixtisas üzrə nəzəri biliklərə, praktiki vərdişlərə və müasir araşdırma metodlarına ardıcıl və dərindən yiyələnmək;

-Kollektivdə işin təşkili və aparılmasına dair zəruri biliklərə və vərdişlərə yiyələnmək, özlərinin təhsil, elmi və mədəni səviyyəsini daim artırmaq, universitetin ictimai həyatında iştirak etmək;

-Auditoriya təlim məşğələlərində iştirak etmək, müvafiq tədris planlarında və kursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşırıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;

-Universitetdə qəbul edilmiş ictimai asayiş və davranış qaydalarına riayət etmək;

-Universitetin idarə heyətinə, müəllimləri və əməkdaşlarına, bir-birinə hörmətlə yanaşmaq, tədris prosesinin aparılmasına, universitetin struktur bölmələrinin işinə mane ola biləcək hərəkətlərə yol verməmək, universitetdə müəyyən edilmiş qaydaların pozuntusunun qarşısını almaq üzrə müvafiq səlahiyyətləri olan, universitetin idarə heyəti işçilərinin və digər əməkdaşlarının qanuni tələblərini dərhal yerinə yetirmək;

-Universitetin otaqlarına, tədris-laboratiya avadanlığına, cihazlara, dərs vəsaitlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, universitetin otaqlarında təmizliyə və səliqəyə riayət etmək.

## 5. Azərbaycan Universitetində magistrantlar üçün mübadilə proqramları

Azərbaycan Universiteti tələbələrə aşağıdakı istiqamətlər üzrə xaricdə təhsil almaq imkanları təklif edir:

- "Erasmus+"
- Mevlana Mübadilə Proqramı

Mevlana və "Erasmus+" mübadilə proqramları çərçivəsində Türkiyə və Avropa ölkələrinin ali təhsil müəssisələrində bir semestrlik təqaüdlü təhsil almaq imkanı yaradılır. Tələbə təklif olunan yerlər üzrə müvafiq şərtlərə cavab verərsə təklif olunan ölkə və universitetlərdən seçim edərək müsabiqədə iştirak edə bilər.

***Mübadilə proqramlarının əsas şərtləri aşağıdakılardır:***

- xarici universitetə təhsil haqqı ödənilmir;
- tələbələrin yol xərcləri ödənilir;
- bir semestr ərzində tələbələrə aylıq təqaüd verilir;

- bir semestr təhsil almaq imkanı təklif edilir;
- yerlər üzrə müsabiqə keçirilir;
- tələbələrin orta balı (ÜÖMG) – 71- dən yuxarı olmalıdır;
-təhsil verilən xarici dildə sərbəst danışıq qabiliyyəti.

***Əsas tələb olunan sənədlər:***

- Transkript
- CV (Azərbaycan və ingilis dillərində);
- pasport və ya şəxsiyyət vəsiqəsi;
- Niyyət məktubu (Motivation letter) (təhsil almaq istədiyi universitet üçün).

***Azərbaycan Universiteti ilə tərəfdaş universitetlər:***

- Anadolu Universiteti (Eskişehir, Türkiyə)
- Akdeniz Universiteti (Antalya, Türkiyə)
- Almata Menecment Universiteti (Almata, Qazaxıstan)
- Çanakkale Onsekiz Mart Universiteti (Çanakkale, Türkiyə)
- Gaziantep Universiteti (Gaziantep, Türkiyə)
- Gaziosmanpaşa Universiteti (Tokat, Türkiyə)
- Gazi Universiteti (Ankara, Türkiyə)
- Hacettepe Universiteti (Sıhhiye, Türkiyə)
- İnönü Universiteti (Malatya, Türkiyə)
- İstanbul Tekniki Universiteti (İstanbul, Türkiyə)
- İstanbul Kültür Universiteti (İstanbul, Türkiyə)
- Kocaeli Universiteti (Kocaeli, Türkiyə)
- Kahramanmaraş Sütcü İmam Universiteti (Kahramanmaraş, Türkiyə)
- Karabük Universiteti (Karabük, Türkiyə)
- Mehmet Akif Ersoy Universiteti (Burdur, Türkiyə)
- Selçuk Universiteti (Konya, Türkiyə)
- Koblenz Universiteti (Koblenz, Almaniya)
- Vechta Universiteti (Vechta, Almaniya)
- Poznan Texnologiya Universiteti (Poznan, Polşa)
- Qafqaz Universiteti (Tblisi, Gürcüstan)
- Silesian University in Opava (Opava, Çexiya)
- Kuala Lumpur Universiteti (Kuala Lumpur, Malayziya)
- Krakov İqtisadiyyat Universiteti (Krakov, Polşa)
- Xarkov Milli Radioelektronika Universiteti )Xarkov, Ukrayna)

## 6. Kredit sistemində tələbənin biliyinin qiymətləndirilməsi

Biliyin qiymətləndirilməsinin çoxballı sistemi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ” ilə tənzimlənir. Biliyin qiymətləndirilməsinin çoxballı sistemi tələbələrin tədris fəaliyyəti nəticəsində əldə etdikləri bilik və bacarıqların qiymətləndirilməsinin yeni mexanizmidir. Tələbənin hər bir fənn üzrə toplaya

biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı tələbənin semestr ərzindəki fəaliyyətinə (cari qiymətləndirmə), digər yarısı isə imtahanın nəticələrinə görə toplanır. Balların maksimum miqdarının bölgüsü aşağıdakı kimi müəyyənləşdirilir:

- 10 bal dərslərə davamiyyətinə görə;
- 10 bal tələbənin sərbəst işinə görə;
- 30 bal seminar (məşğələ) dərslərinin nəticələrinə görə;
- 50 bal imtahanın nəticəsinə görə;

QEYD 1: sadəcə mühazirəsi olan fənlərdə 30 bal kollokviumlardan əldə edilir.

## 7. Fərdi tədris planı (FTP)

Magistr tədris proqramına uyğun olaraq hər bir magistr tələbəsi üçün birinci semestrin ilk üç ayı ərzində fərdi tədris planı hazırlanır. Fərdi tədris planında hər bir semestr ərzində planlaşdırılan tədris və elmi tədqiqat işləri, elmi rəhbər və dissertasiya işinin mövzusu göstərilir. Fərdi tədris planı bilavasitə magistrant və elmi rəhbər tərəfindən tərtib olunur, imzalanır və kafedra iclasında müzakirə üçün təqdim edilir. Fərdi tədris planı kafedrada qəbul edildikdən sonra təsdiq olunmaq üçün Magistratura və doktorantura şöbəsinə təqdim olunur. Magistrant təsdiq olunmuş fərdi tədris planı əsasında tədrisini və tədqiqat işlərini yerinə yetirir. Tədris prosesində magistrantın fərdi tədris planında müəyyən dəyişikliklər aparıla bilər (əlavə olaraq bir və ya bir neçə fənnin daxil edilməsi, dissertasiya mövzusunun dəqiqləşdirilməsi və ya dəyişdirilməsi və s.). Bu məqsədlə kafedra müdiri Magistratura və doktorantura şöbəsinə təqdimatla müraciət etməlidir. Fərdi tədris planında aparılan hər hansı bir dəyişiklik Magistratura və doktorantura şöbəsi tərəfindən təsdiq olunmalıdır.

## 8. İmtahan sessiyasının təşkili və keçirilməsi

Hər tədris ilinin payız və yaz semestrlərinin sonunda 5 həftə ərzində imtahan sessiyası təşkil olunur. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur və akademik borcu yaranmış olur. İmtahan nəticələrinin qiymətləndirilməsindən və ya sualların (testlərin) tərtibatından narazılığı olan tələbələr 3 iş günü ərzində Apellyasiya Komissiyasına müraciət edə bilərlər. Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələrə növbəti semestrin dərsləri başlanana qədər bir dəfə həmin imtahanı vermək imkanı yaradılır. Üzrsüz səbəbdən imtahanda iştirak etməyən tələbə fənn (fənlər) üzrə akademik borcu qalmış hesab olunur. Bu halda fənni (fənləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddət ərzində həmin fənn (fənlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrin birində imtahan sessiyası zamanı) istifadə edə bilər. Tələbə hər semestrdə fənni (fənləri) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Bu zaman tələbənin fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin nəticələri nəzərə alınır və onun qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur. Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı, həmin fənn üçün müəyyən edilən məbləğin 25 faizi ödənilir. Bütün digər hallarda akademik borcu olan tələbə fənni yenidən dinləməli və həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir.

***Tələbəyə imtahanda nə qadağandır?***

İmtahanın gedişində tələbəyə icazə verilmir:

-digər tələbələrlə danışmaq, onlara mane olmaq, imtahanda səs salmaq;

-kitabdan, mühazirə konspektlərindən və digər icazə verilməyən materiallardan istifadə etmək və köçürmək;

-imtahan biletini və cavab blanklarını təhvil vermədən imtahan zalını tərk etmək, imtahan zalına cib telefonu, kalkulyator, konspekt, qeydiyyat kitabçası, çanta və digər texniki vasitələri gətirmək;

-hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;

-intizamsızlıq göstərmək:

-zalda gəzişmək, yerini dəyişmək və ya kiminsə köməyindən istifadə etmək, kiməsə kömək etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq.

Göstərilən qaydalara əməl etməyən tələbə imtahandan xaric edilir və imtahanın nəticəsinə görə ona 0 bal müəyyənləşdirilir.

## 9. Təqaüdlər necə müəyyənləşdirilir?

Azərbaycan Universitetində təqaüdlərin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi QAYDALARI" ilə tənzimlənir.

Həmin qaydalara əsasən:

-dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ali və orta ixtisas təhsili müəssisələrinin əyani formada təhsil alan tələbələrinə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricilərinə görə verilir;

-təqaüd əyani formada təhsil alan Azərbaycan Respublikasının vətəndaşlarına və əcnəbi vətəndaşlara şamil edilir.

-təqaüd dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilir.

-təqaüd ayda bir dəfə olmaqla, ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş normativ müddətdə (bakalavriat - 4 il, magistratura – 2 il) ödənilir.

-təqaüdün verilməsi tələbə təhsil aldığı müəssisədən xaric olunduqda və ya akademik məzuniyyət götürdükdə (əmək qabiliyyətini müvəqqəti itirdikdə, hamiləlik və doğuşla bağlı hallar istisna olmaqla) dayandırılır.

-istehsalat təcrübəsi və tətil müddətlərində tələbə və şagirdlərin işləyib-işləməmələrindən asılı olmayaraq, təqaüd alma hüquqları saxlanılır.

-Ali təhsil müəssisələrində hər tədris ili üçün ixtisaslar üzrə təqaüdlərin sayı həmin ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayına bərabər qəbul edilir.

Ali təhsil və orta ixtisas təhsili müəssisələrinə hər bir ixtisas üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, imtahan sessiyasının nəticələrinə əsasən ÜOMG-yə görə ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti semestrdə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir.

## 10. Magistrantların attestasiyası *

Magistrantlar Fərdi tədris planında nəzərdə tutulmuş bütün fəaliyyətlər yerinə yetirildikdən və kafedrada attestasiya olunduqdan sonra ikinci kursa keçirilirlər. Magistrantların attestasiyası hər semestr kafedrada aparılır və onun semestr ərzindəki fəaliyyəti müzakirə edilir. Magistrantın elmi rəhbərinin təqdimatı əsasında növbədən kənar attestasiyası təyin oluna bilər və

attestasiyanın nəticəsinə əsasən müvafiq qərar qəbul oluna bilər. Tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Magistr proqramı üzrə təhsildə tələbənin fəal müstəqil işinə daha çox üstünlük verilməlidir. Yekun attestasiya ixtisas fənləri üzrə imtahanlardan və magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Magistratura səviyyəsini bu və ya digər səbəbdən başa vurmayan şəxslərə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada arayış verilir.

**11. Elmi-pedaqoji və elmi-tədqiqat təcrübəsi** *

Magistrantın elmi-tədqiqat və pedoqoji fəaliyyətinin minimum nəticələri aşağıdakılardır:

-buraxılış işinin (magistrlik dissertasiyasının) yerinə yetirilməsi;

-magistrlik dissertasiyasının məzmununu əhatə edən ən az 2 (iki) məqalənin (və ya tezisin) nəşr etdirilməsi və ya çap üçün qəbul etdirilməsi (uyğun sənədlərlə təsdiq olunmalıdır);

-elmi-texniki və elm-metodiki konfranslarda məruzə ilə iştirak etmək;

-pedaqoji prosesdə iştirak etmək;

Magistr tələbələrinin istehsalat təcrübəsi müvafiq təhsil proqramlarının tərkib hissəsidir. Təcrübənin təşkili, həcmi, məqsədi və keçirilmə müddəti mütəxəssis hazırlığı aparılan müvafiq istiqamətlər (ixtisaslar) üzrə dövlət təhsil standartları ilə müəyyənləşdirilir. Magistrantlar aşağıdakı təcrübələrdən keçməlidirlər:

elmi-pedaqoji təcrübə;

elmi-tədqiqat təcrübəsi.

**Elmi-pedaqoji təcrübənin məqsədi**–pedaqogikanın təcrübi əsaslarının mənimsənilməsi və vərdişlərin əldə edilməsi, elmi metodik materialların (işçi tədris planının, fənlərin proqramının, tədris-metodiki vəsaitlərin və tövsiyələrin) tərtib olunma metodikasının mənimsənilməsi, təcrübəli müəllimlərin apardığı mühazirələrdə və seminarlarda iştirak olunması, bakalavr tələbələri üçün sınaq dərslərinin keçirilməsidir. Magistr hazırlığında elmi-pedaqoji təcrübənin digər bir vacib xüsusiyyəti ondadır ki, magistratura məzunlarının gələcək fəaliyyəti əksər hallarda rəhbər vəzifələrdə çalışması, yəni işçi personalın təlimi (tədris materiallarının hazırlanması üçün bacarıq və vərdişlərin əldə edilməsi, təlim proqramlarının planlaşdırılması, seminarların keçirilməsi) ilə əlaqədardır. Təcrübənin müddəti – 4 həftə; Magistrantlar təcrübə qurtardıqdan sonra 2 həftə ərzində hesabat təqdim edirlər.

***Elmi-pedaqoji təcrübənin vəzifələri:***

-Ali təhsil müəssisəsinin idarəetmə sistemi haqqında təsəvvürün formalaşdırılması;

-Tələbənin ali məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək;

-Pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrdə pedaqoji peşəyə olan marağı möhkəmləndirmək və təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək.

-Tədris işinin təşkilinin, məzmununun və planlaşdırılmasının əsas formaları ilə tanış olmaq;

-Ali təhsil sahəsində çalışan müəllim üçün peşə vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsi;

-Ali məktəb pedaqogikası üzrə əsas biliklərin, tədris, metodiki və tərbiyə işlərinin sərbəst olaraq yerinə yetirilməsində bacarıq və vərdişlərin əldə edilməsi.

**Elmi-tədqiqat təcrübəsinin məqsədi**–tələbələrin elmi-tədqiqat fəaliyyəti üçün hazırlanmasını, peşə biliklərinin artırılmasını, sistemləşdirilməsini, elmi-tədqiqat işlərinin sərbəst şəkildə yerinə yetirilmə vərdişlərinin formalaşdırılmasını və buraxılış işinin (magistrlik

dissertasiyasının) yerinə yetirilməsini təmin etməkdir. Təcrübənin müddəti – 4 həftə; Magistrantlar təcrübə qurtardıqdan sonra 2 həftə ərzində hesabat təqdim edirlər.

***Elmi-tədqiqat təcrübəsinin vəzifələri:***

-Tələbələri ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq yeni texnologiyalarla, mütərəqqi iş üsulları ilə, müasir elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək;

-Elmi-biblioqrafik axtarışın təşkilində istifadə olunan üsullar və formalarla tanış olunması (o cümlədən elektron kataloqlarla və internet vasitəsi ilə axtarışlar həyata keçirilməsi);

-Tələbələrdə işgüzarlıq, təşkilatçılıq və birgə çalışmaq vərdişlərini yaratmaq;

-Aktual elmi problemlərin müəyyən edilməsi və onların tədqiq edilməsində təcrübə toplanması;

-Elmi-tədqiqat proqramlarının işlənməsi və yerinə yetirilməsinin təşkili;

-Tədqiqat nəticələrinin analiz edilməsi;

-Təşkilatlarda layihələrin qruplar tərəfindən yerinə yetirilməsinin idarəetmə mexanizmlərinin mənimsənilməsi;

-Magistrlik dissertasiyasının yerinə yetirilməsi üçün lazım olan materialların toplanması.

## 12. Magistrantın təcrübə rəhbərinin vəzifələri*

-elmi-tədqiqat təcrübəsinin proqramını və təqvim müddətlərini kafedra müdiri ilə razılaşdırır, təcrübənin proqramının yerinə yetirilməsi üçün təşkilati tədbirləri həyata keçirir.

-təcrübə müddətində magistrantların sərbəst işləməsi üçün tapşırıqları müəyyənləşdirir və onların yerinə yetirilməsində məsləhətlər verir;

-magistrantın kafedrada təcrübə üzrə hesabatının müdafiəsini təşkil edir.

***Təhsil müəssisəsi tərəfindən təyin olunan rəhbər:***

Təcrübə rəhbəri kafedra müdiri tərəfindən təyin edilir. Təcrübə rəhbəri aşağıdakı təşkilati işləri yerinə yetirir:

- Təcrübənin keçirilməsinə dair işçi proqramı hazırlayır;
- Magistrantla birlikdə elmi-pedaqoji təcrübə keçmək üçün uyğun fənni müəyyənləşdirir;
- Tələbələrin əmək mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə cavabdehlik daşıyır;

-Tələbələrə fərdi tapşırıqların, təcrübə mövzularının müəyyənləşdirilməsində və onların iş yerlərinə təhkim olunmasında iştirak edir;

-Tələbələrə fərdi tapşırıqların yerinə yetirilməsində metodiki yardım göstərir və onlara buraxılış işi üçün lazım olan materialların toplanmasında köməklik göstərir;

-Tələbələrə təcrübə proqramının yerinə yetirilməsi barədə hesabat tərtib edilməsində metodiki yardım göstərir.

***Magistrantın vəzifələri:***

-Elmi-pedaqoji təcrübənin keçirilməsi üçün seçilmiş fənn üzrə mütləq bir neçə mühazirədə və seminar məşğələlərində iştirak olunması;

-Mühazirələrin və seminar məşğələlərinin keçirilməsi üçün tədris və metodik materialların hazırlanması və təcrübə rəhbəri ilə müzakirə olunması;

-Tanışlıq həftəsi olan I həftə ərzində universitetin strukturu ilə və elmi-pedaqoji təcrübə keçirilən bölmədəki tədris və pedaqoji fəaliyyətlə tanış olunması, fəaliyyət planının müəyyənləşdirilməsi və hazırlıq işlərinin aparılması;

-Sonrakı üç həftə ərzində mühazirələrin, seminar və ya laboratoriya məşğələlərinin aparılması;

-Keçirilmiş dərslərin həm məzmun, həm də metodik nöqteyi-nəzərdən digər magistrantlarla müzakirə olunması;
-Seçilmiş fənn üzrə ən az 6 saat mühazirədə iştirak olunması, müəllimin keçirdiyi dərs haqqında və tələbələrin aktivliyi haqqında öz düşüncələrini yazması;
-Eyni ixtisasdan təcrübə keçən digər magistrantların dərslərində iştirak olunması və öz mülahizələrinin təcrübənin hesabatında göstərilməsi;
-Elmi-tədqiqat təcrübəsi zamanı fərdi tədris planına uyğun olaraq elmi rəhbər tərəfindən müəyyən edilmiş tapşırıqların yerinə yetirilməsi;
-Elmi-pedaqoji və elmi-tədqiqat təcrübəsi üzrə hesabatın hazırlanması və onun gündəliklə birlikdə təcrübə qurtardıqdan sonra 2 həftə ərzində təcrübə rəhbərinə təqdim olunması

Təcrübə keçməsi barədə tələbənin hesabat forması və təcrübənin yekunlarına dair attestasiya forması təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir. Təcrübələrin yekunlarına görə alınan qeyri-müvəffəq qiymət akademik borc hesab edilir. Təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və qeyri-müvəffəq qiymət alan tələbələr təkrar təcrübə keçməlidirlər.

**Təcrübələrin hesabatına olan tələblər***

Təcrübə haqqında hesabat magistrantın təcrübə zamanı fəaliyyətini xarakterizə edən əsas sənəddir. Hesabat elmi işlərin yerinə yetirilməsində tələb olunan qaydalar gözlənilməklə 1.5 intervalla 14 ölçüdə şriftlə yazılmalıdır. Elmi-pedaqoji təcrübə haqqında hesabata keçirilmiş dərslərin metodik təminatı (dərsin qısa məzmunu, yoxlama sualları, məsələlər, testlər və ədəbiyyat siyahısı) daxil edilməlidir. Elmi-tədqiqat təcrübəsi haqqında hesabatda magistr dissertasiyasının mövzusu ilə əlaqədar və ya yerinə yetirilmiş digər elmi-tədqiqat işinin məqsədi izah edilir, toplanmış materialların analizi verilir, nəticələr və təkliflər şərh edilir.

***Elmi-pedaqoji təcrübənin hesabatı*** (titul vərəqi, giriş, əsas hissə, təcrübədə əldə olunan nəticə, ədəbiyyat siyahısı). Həcmi ən az 5 səhifə olmalıdır (istifadə olunan ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla).

Titul vərəqi istehsalat təcrübəsi üzrə tərtib olunan hesabatın birinci səhifəsidir. Elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri müxtəlif vaxtlarda keçirildiyindən hər bir təcrübə üçün ayrı hesabat yazılmalıdır.

***Elmi-pedaqoji təcrübə üzrə hesabatın əsas hissəsində:***

Magistrantın elmi-pedaqoji təcrübəsi üçün müəyyən edilmiş (yerinə yetirilməsi lazım olan) tapşırıqlar göstərilir;

Elmi-pedaqoji təcrübə ərəfəsində magistrantın müəyyən edilmiş dərsi tədris etməsi üçün tanış olduğu metodika təsvir edilir;

Magistrantın dinləyici olaraq iştirak etdiyi mühazirələr və seminar məşğələləri haqqında rəyi (dərsin tədrisində istifadə olunan metodikanın təsviri) izah edilir;

Görülən işlərin qısa təsviri verilir və onların yerinə yetirilmə tarixləri göstərilir;

Elmi-pedaqoji təcrübənin yerinə yetirilməsində qarşıya çıxan çətinliklər haqqında məlumat verilir.

***Elmi-tədqiqat təcrübəsi üzrə hesabatın əsas hissəsində:***

Elmi-tədqiqat təcrübəsi üçün müəyyən edilmiş (yerinə yetirilməsi lazım olan) tapşırıqlar göstərilir;

Elmi-tədqiqat işinin məqsədi aydınlaşdırılır;

Mövzunun elmi və təcrübi əhəmiyyətinin dəyərləndirilməsi göstərilir;

Əldə olunan materialların analizi verilir;

Magistr dissertasiyasında qoyulan məsələnin həlli üçün seçilmiş tədqiqat üsulu əsaslandırılır;

Nəticələrin iqtisadi analizi verilir;

Müasir elmi və təcrübi nailiyyətlərdə tədqiq olunan məsələnin yeri, gələcək tədqiqatların istiqamətləri müəyyənləşdirilir;

Nəticə və təkliflər göstərilir.

Təcrübədə əldə olunan nəticə olaraq elmi-pedaqoji və ya elmi-tədqiqat təcrübəsində qarşıya qoyulan məsələlərin yerinə yetirilməsi dəyərləndirilir, təcrübə zamanı ortaya çıxan problemlərin aradan qaldırılması yolları və s. göstərilir.

Ədəbiyyat siyahısına yalnız hesabatın tərtib olunmasında istifadə olunan kitablar, məqalələr, internet mənbələri və s. daxil edilir.

***Hesabatın müdafiəsi:*** Hesabat yoxlama üçün təcrübə rəhbərinə təqdim edilir. Təcrübə rəhbəri tərəfindən magistrantın təcrübə proqramının necə yerinə yetirilməsi araşdırılır. Hesabatın nəticələri kafedra iclasında magistrantın iştirakı ilə müzakirə edilir və yekun qiymət verilir.

## 13. Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları*

Ali təhsilin magistratura pilləsində təhsilin yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir.

Magistrlik dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müdafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtidir. Magistrlik dissertasiyasının müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəffəq qiymət alanlar buraxılırlar. Magistrlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş şəxslərə vahid dövlət nümunəli diplom verilir.

Magistrantın elmi rəhbəri:

-magistranta dissertasiyası üçün tapşırıq verir;

-magistranta dissertasiyanın yerinə yetirilmə dövrünü əhatə edən fərdi iş planının hazırlanmasında köməklik göstərir;

-magistranta dissertasiya işi üçün lazım olan elmi-metodik ədəbiyyatı, məlumat və arxiv materiallarını, layihələri və digər mənbələri tövsiyə edir.

-magistrantla müntəzəm olaraq fərdi iş planına uyğun söhbətlər aparır, ona elmi-metodik məsləhətlər verir.

### Magistrlik dissertasiyası üçün mövzunun seçilməsi*

Magistraturaya qəbul olunan hər bir tələbə üçün kafedra tərəfindən elmi dərəcəsi (elmlər doktoru və ya fəlsəfə doktoru) olan elmi rəhbər təyin edilir və magistrantın tədris və tədqiqat fəaliyyəti bilavasitə elmi rəhbərin nəzarəti altında həyata keçirilir. Magistrlik dissertasiyası elmi rəhbərin (zəruri hallarda həm də məsləhətçilərin) rəhbərliyi altında yerinə yetirilən müstəqil elmi-tədqiqat və təcrübi konstruktor işidir. Magistrlik dissertasiyası üçün mövzunun düzgün seçilməsi böyük əhəmiyyət kəsb edir. Magistranta dissertasiya mövzusunu təklif edərkən tədqiqatın məqsədəuyğunluğu əsaslandırılmalıdır. Magistrlik dissertasiyasının mövzusu və planı, magistrantın elmi rəhbəri olduğu kafedranın elmi istiqamətləri ilə əlaqələndirilməli və kafedranın təqdimatı əsasında fakültənin elmi şurası tərəfindən birinci semestrin 3 ayı ərzində təsdiq edilməlidir. Magistrant mövzunun seçilməsində elmi rəhbərinin köməyi ilə dissertasiyanın məzmununun nədən ibarət olmasını, qarşıya qoyulan məsələnin yeniliyini, aktuallığını və təcrübi əhəmiyyətini müəyyənləşdirməli, seçilmiş mövzunun onun yüksək səviyyəli bir mütəxəssis kimi yetişməsində əhəmiyyətini qiymətləndirməlidir. Magistrlik dissertasiyası magistrantın bakalavr səviyyəsində yerinə yetirdiyi buraxılış işinin davamına və daha dərindən tədqiq etdirilməsinədə

həsr oluna bilər. Bu halda buraxılış işində yerinə yetirilən mövzu təkrarlanmamalı və daha dərin elmi və təcrübi tədqiqatların yerinə yetirilməsini nəzərdə tutmalıdır.

Magistrlik dissertasiyası mövzusunun seçilməsində sərbəstlik magistrantın fərdi elmi maraqlarının həyata keçirilməsində və qarşıya qoyulan problemin həllində geniş imkanlar yaradır. Magistrant dissertasiya mövzusunu özü də təklif edə bilər.

Magistrlik dissertasiyası aşağıdakı tələblərdən birinə cavab verməlidir:

-işdə baxılan müvafiq elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı bir məsələnin yaradıcı həllinə;

-mühüm tətbiqi əhəmiyyəti olan texniki, iqtisadi və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhinə.

Magistrlik dissertasiyasında magistrantın əldə etdiyi nəticələr elmi və praktiki cəhətdən əsaslandırılmalı, mövcud faktlarla müqayisəli qiymətləndirilməli və onların istifadəsi üçün tövsiyələr verilməlidir.

**Magistrlik dissertasiyasının işçi planı***

Magistrlik dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil elmi-tədqiqat işidir və onun yerinə yetirilməsi üçün plan tərtib olunmalıdır. İşin planlaşdırılması işçi planın tərtib olunması ilə başlayır və nəzərdə tutulan tədqiqatların yerinə yetirilməsi üçün yol xəritəsini müəyyənləşdirir. Düzgün tərtib olunmuş plan seçilmiş mövzu üzrə tədqiqatların məhsuldar şəkildə təşkil olunmasına və vaxtında yerinə yetirilməsinə imkan verir. Magistrlik dissertasiyasının işçi planı mövzu üzrə ədəbiyyatların öyrənilməsi və seçilməsi ilə paralel hazırlanır və elmi rəhbərlə razılaşdırılır.

**Mövzu üzrə məlumatların toplanması, analizi və ümumiləşdirilməsi ***

Magistrlik dissertasiyasının işçi planında göstərilən mövzulara uyğun olan ədəbiyyatlar seçilir və onların siyahısı tərtib edilir. Tədqiqatın müvzusu ilə əlaqədar olan bütün ədəbiyyat mənbələri öyrənilməlidir. Bu mənbələrə ölkəmizdə və xaricdə nəşr edilən müxtəlif ədəbiyyat növləri aiddir. Biblioqrafik siyahının tərtib edilməsi üçün aşağıdakı mənbələr istifadə edilir:

- magistrlik dissertasiyasının mövzusu ilə əlaqədar olaraq məcburi və tövsiyə olunan ədəbiyyat siyahısı;
- Mövzu üzrə dissertasiya işləri.
- İnternet resursları;

Əvvəlcə son 3-5 il ərzində nəşr edilmiş ədəbiyyatlar seçilir, çünki onlarda üzərində tədqiqat aparılan problem üzrə daha aktual olan elmi nailiyyətlər və onların təcrübi əhəmiyyəti dərc edilmişdir. 10, 20, hətta 30 illik ədəbiyyatların istifadə olunması bu sahədə çalışan alim və mütəxəssislərin tövsiyələri nəzərə alınaraq istifadə oluna bilər. Tədqiq olunan mövzu üzrə ədəbiyyat mənbələri dərc edilmiş məqalə və kitabların ədəbiyyat siyahısından seçilə bilər. Elmi jurnallarda məqalələrin axtarışı hər il ərzində nəşr edilmiş jurnalın son nömrəsindən başlanmalıdır, belə ki, bu son nömrədə bir il ərzində dərc edilmiş məqalələrin siyahısı verilir. Hal-hazırda internetdə çoxlu sayda elektron mənbələr (kitablar, məqalələr, əsasnamələr, informasiya materialları və digər) yerləşdirilmişdir. Bu materialların araşdırılması, istifadə olunması və ədəbiyyat siyahısına daxil edilməsi vacibdir. Elmi mövzuda yazılmış kitabla iş titul vərəqinin öyrənilməsi ilə başlayır və burada müəllif, nəşr ili, buraxılış yeri haqqında məlumat verilir və mündəricat göstərilir. Nəşr ili nəzərdə tutulan problem üzrə aparılan tədqiqatlar haqqında verilən informasiyanın müasir dövrə aid olub-olmadığını göstərir. Kitabın

mündəricatında onun məzmununun əsas müddəaları və təqdim olunmuş materialların ardıcıllığı göstərilir. Sonra girişlə tanış olmaq lazımdır ki, burada da mövzunun aktuallığı göstərilir və kitabın qısa məzmunu şərh edilir, mənbələr və tədqiqat üsulları haqqında və problemin həllolunma dərəcəsi haqqında məlumat verilir. Tədqiq olunan mövzu üzrə toplanan materiallar yekunlaşdırılaraq və ümumiləşdirilərək magistrlik disssertasiyasının strukturu, məzmunu və həcmi müəyyənləşdirilir.

**Magistrlik dissertasiyasının təqdimat mərhələləri** *

Magistrant dissertasiya işinin hazırlanması barədə vaxtaşırı kafedraya məlumat verir və dissertasiya işini tələb olunan məzmunda və formada yerinə yetirdikdən sonra elmi rəhbərinə təqdim edir. Elmi rəhbər işi yoxladıqdan sonra özünün yazılı rəyi ilə birlikdə müzakirə üçün kafedraya təqdim edir. Rəydə dissertasiya işinin bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin yeniliyi və doğruluğu, nəzəri və praktiki əhəmiyyəti və həmçinin magistrantın fərdi xüsusiyyətləri qiymətləndirilir. Dissertasiya işi kafedrada müzakirə olunduqdan sonra onun magistrlik dissertasiyası üçün irəli sürülən tələblərə cavab verməsi və magistrantın müdafiəyə hazırlığı barədə müvafiq qərar qəbul edilir. Ali təhsilin magistratura səviyyəsində təhsilin yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir. Dissertasiyanın müdafiəsi təhsil müəssisəsinin elmi şurasının qərarı ilə yaradılmış ixtisaslaşdırılmış şuranın iclasında aparılır. Magistratura səviyyəsini bitirən şəxslərə „magistr“ ali elmi ixtisas dərəcəsi verilir. „Magistr“ dərəcəsi magistrlik dissertasiyalarının müdafiəsi üçün ali təhsil müəssisəsi tərəfindən yaradılmış ixtisaslaşdırılmış şuraların qərarı əsasında verilir. Bu təhsil səviyyəsini bitirən şəxslər təhsillərini doktoranturada davam etdirə bilərlər.

**Magistrlik dissertasiyasının strukturu** *

Dissertasiya təlim dilində yazılmalı və müdafiə edilməlidir. Magistrlik dissertasiyasının strukturunu aşağıdakı ardıcıllıqla yerləşdirilmiş materiallar təşkil edir:

- titul vərəqi;
- referat;
- mündəricat;
- giriş;
- əsas hissə (dissertasiyanın məzmunu);
- nəticə;
- istifadə olunan ədəbiyyat;
- əlavələr (əgər varsa).

Referat dissertasiyanın məzmununun qısa xülasəsidir və orada aşağıdakılar əks olunmalıdır:

- magistrantın adı və dissertasiya işinin mövzusu;
- tədqiqatın obyekti, məqsədi və xarakteri;
- tədqiqat və hesablamaların qısa şərhi;
- nəticə.

Referatın həcmi təxminən 150-200 sözdən ibarət olmalı və bir səhifədə yazılmalıdır. İçindəkilər dissertasiya işində olan bütün fəsillərin, hər fəslə daxil olan başlıqların və altbaşlıqların hansı səhifələrdən başlandığını göstərir. Girişdə mövzunun aktuallığı, tədqiqatın məqsədi və obyekti haqqında qısa məlumat verilir. Əsas hissədə dissertasiya işində müvafiq elmi istiqamət üzrə mühüm əhəmiyyəti olan və araşdırılan məsələnin təhlili və onun yaradıcı həlli verilir. Əsas hissənin mətni fəsil, başlıqlar və altbaşlıqlara bölünür. Burada lazım gəldikdə

cədvəllər, şəkillər, qrafiklər, diaqramlar, sxemlər və s. verilə bilər. Nəticə hissəsində tədqiqat işinin yekunu olaraq magistrantın əldə etdiyi elmi və təcrübi nəticələr və tövsiyələr verilir. İstifadə olunan ədəbiyyat hissəsində dissertasiya işini yerinə yetirdikdə istifadə edilmiş bütün mənbələr bir qayda olaraq əlifba sırası ilə (müəllifin soyadının birinci hərfi) ardıcıl nömrələnərək göstərilir. (Bəzi hallarda mənbələr istinadlara görə də nömrələnə bilər). Müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallarından istifadə edildikdə, magistrlik dissertasiyası müdafiə ilə bağlı istənilən müzakirə mərhələsindən geri qaytarılır. Əlavələr hissəsində dissertasiyanın əsas hissəsindəki araşdırmalara və müddəalara aydınlıq gətirən və ya əsaslandıran materiallar verilir (əgər buna ehtiyac olarsa).

**Dissertasiya işinin müdafiəyə təqdim olunması** *

Magistrant dissertasiya işinin hazırlanması barədə vaxtaşırı elmi rəhbərinə məlumat verir və onu tələb olunan məzmunda və formada yerinə yetirdikdən sonra elmi rəhbərinə təqdim edir. Elmi rəhbər işi yoxladıqdan sonra özünün yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün kafedraya təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu, nəzəri və təcrübi əhəmiyyəti və həmçinin magistrantın fərdi xüsusiyyətləri qiymətləndirilir. Kafedraya təqdim olunan materiallar və magistrantın Fərdi tədris planı nəzərdən keçirilir, dissertasiya işi müzakirə olunduqdan sonra onun magistrlik dissertasiyası üçün qoyulan tələblərə cavab verməsi müəyyənləşdirilir və yekun rəylə birlikdə Magistratura və doktorantura şöbəsinə təqdim edilir. Magistratura və doktorantura şöbəsinin müdiri təqdim olunmuş materialların müdafiəyə buraxılması barədə müvafiq qərar qəbul edir və magistrlik dissertasiyasının titul vərəqində müvafiq qeydlər aparır. Magistratura və doktorantura şöbəsinin müdiri magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə şöbədə baxılır.

**Ekspert rəyi** *

Dissertasiya işi müdafiəyə ən azı 15 gün qalmış tanışlıq və rəy üçün ekspertlərə göndərilir. Ekspertlər dissertasiya işi ilə əsaslı tanışlıqdan sonra yazılı rəy hazırlayır. Rəydə aşağıdakılar öz əksini tapmalıdır:

-dissertasiya mövzusunun aktuallığı;

-ədəbiyyatdan düzgün istifadə olunması;

-müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallarından istifadə olunma faktının olub-olmaması;

-dissertasiya işində irəli sürülən hər bir əsas müddəanın və nəticənin doğruluğu və yeniliyi;

-aparılan tədqiqatların elmi və əməli dəyəri, alınan nəticələrdən istifadə edilməsinin mümkünlüyü;

-işin obyektiv qiymətləndirilməsi, onun müsbət və mənfi cəhətləri;

-işin magistr dissertasiyaları üçün irəli sürülən tələblərə cavab verməsi.

Rəy ekspert tərəfindən imzalanır və müdafiəyə ən azı 5 gün qalmış müdafiə şurasına təqdim edilir. Ekspert rəyinin surəti müdafiəyə ən az 3 gün qalmış magistranta verilməlidir.

**Şifahi müdafiə**

Magistrlik dissertasiyasının müdafiəsi üçün Müdafiə Şurasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

-dissertasiya işi;

-elmi rəhbərin rəyi;
-ekspertlərin rəyi;
-magistrantın tərcümeyi-halı (CV);
-magistrantın fərdi tədris planı;
-magistrantın transkripti;
-magistrantın müdafiəyə hazırlığı barədə kafedra iclasının protokolu.

Müdafiə Şurası üzvlərinin əksəriyyət səsçoxluğu iclasda iştirak etdikdə müdafiə təşkil olunur. Müdafiə Şurası üzvlərinin iclasda iştirakı onların hər birinin elmi dərəcəsi göstərilməklə iclasın protokolunda əks olunmalı və imzası ilə təsdiq edilməlidir. İclasın açılışından sonra sədr müdafiəyə təqdim olunmuş dissertasiya işi və magistrant haqqında məlumat verir, Müdafiə Şurasının katibi isə təqdim olunmuş sənədlər haqqında məlumat verir. Magistrant dissertasiya işinin mahiyyəti və aldığı nəticələr haqqında 20-25 dəqiqə ərzində məruzə edir və verilən suallara cavab verir. Magistrantın cavablarından sonra söz elmi rəhbərə və ekspertlərə verilir, dissertasiya işi üzrə digər rəylər oxunur (əgər varsa) və magistrant onlardakı iradlara cavab verir. Müdafiədən sonra Müdafiə Şurasının qərarı (şifahi müdafiənin qiymətləndirilməsi və namizədə magistr dərəcəsinin verilib-verilməməsi) və həmçinin rəy və tövsiyələri protokollaşdırılıb Magistratura və doktorantura şöbəsinə təqdim edilir. Müdafiənin yekunu olaraq Müdafiə Şurasının üzvləri aşağıdakıları tövsiyə edə bilərlər:

- namizədə magistr dərəcəsi verilsin;
-dissertasiya işinə ciddi hesab olunmayan düzəlişlər etməklə namizədə magistr dərəcəsi verilsin;
-namizədə magistr dərəcəsi almaq üçün dissertasiya işini işləyib yenidən təqdim etməyə və təkrar müdafiəyə icazə verilsin;
-namizədə magistr dərəcəsi verilməsin və təkrar müdafiəyə də icazə verilməsin. Təkrar müdafiə olmadıqda, magistranta müvafiq proqramı dinlədiyi haqda arayış verilir.

**Təkrar müdafiə** *

Əgər dissertasiya barədə ixtisaslaşdırılmış şura mənfi qərar qəbul edərsə, onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, mənfi qərar qəbul edilən gündən ən azı bir ay müddət keçdikdən sonra icazə verilir. Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir. Əgər ekspertlər dissertasiya işində düzəlişlər etməklə namizədə dərəcə verilməsini tövsiyə edirlərsə, hansı dəyişikliklər və düzəlişlər tələb olunduğu yazılı şəkildə namizədə bildirilməlidir.